# İsveçrədə Azərbaycan muğamı səslənib



Sentyabrın 10-dan 13-dək İsveçrənin Arqau kantonunun mərkəzi Arau (Aarau) şəhərində "Xalq musiqisi Federal Bayram"ı keçirilib. Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı səfirliyinin, Mədəniyyət və Turizm Nazirliyinin və Beynəlxalq Muğam Mərkəzinin birgə əməkdaşlığı ilə ölkəmizin iki muğam qrupu bayramda iştirak edib. Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, bayramın açılış konsertində Azərbaycan muğamlarından və təsniflərindən parçalar ifa edilib. Əsasən İsveçrədə yaşayan müxtəlif diasporların musiqi qruplarının iştirak etdiyi festivala Azərbaycan musiqiçiləri fəxri qonaq kimi qatılıblar. Ölkəmizin ilk dəfə iştirak etdiyi bu mötəbər tədbirdə 300 musiqi kollektivində birləşən 1500-ə yaxın musiqiçi təmsil olunub.

1971-ci ildə əsası qoyulmuş bu bayram 3-4 ildən bir İsveçrənin müxtəlif şəhərlərində keçirilir və adından da göründüyü kimi, bütün İsveçrənin bayramı sayılır. Builki - 12-ci Federal musiqi bayramının əsas məqsədi İsveçrədə yaşayan xalqların etnik musiqisini ictimaiyyətə təqdim etmək olub.